**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**Xarici maliyyə institutları və investisiya fondları ilə iş şöbəsinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) Aparatının struktur bölməsi olan Xarici maliyyə institutları və investisiya fondları ilə iş şöbəsi (bundan sonra – şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində Nazirliyin beynəlxalq maliyyə institutları və Azərbaycan Respublikasının həmsədr olduğu beynəlxalq investisiya fondları (bundan sonra – beynəlxalq investisiya fondları) ilə əməkdaşlığı, o cümlədən investisiya fondlarına büdcədən ayrılan vəsaitlər üzrə sifarişlərinin verilməsi və fondlara köçürülməsi ilə bağlı işləri təşkil edir, dövlət orqanlarına, müəssisə və təşkilatlarına ayrılan qrantlar, maliyyə və texniki yardımlar, Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələrlə bağlı iqtisadi (o cümlədən maliyyə) ekspertiza, əlaqələndirmə və nəzarət tədbirlərini həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında” Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra – nazir) əmr və sərəncamlarını (bundan sonra – təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin Aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra – Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, publik hüquqi şəxslər və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. Nazirliyin səlahiyyətləri çərçivəsində beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın həyata keçirilməsi, mövcud əlaqələrin gücləndirilməsi və yeni əlaqələrin qurulması sahəsində tədbirləri hazırlayır və həyata keçirir;

2.1.2. dövlət orqanlarına, müəssisə və təşkilatlarına ayrılan qrantların, maliyyə və texniki yardımların, dövlət adından borcların və dövlət zəmanəti ilə alınmış kreditlərin cəlb edilməsini, bu sahədə dövlət orqanları, müəssisə və təşkilatlar tərəfindən imzalanan müqavilələrin (sazişlərin) iqtisadi ekspertizasını, onların əlaqələndirilməsini, monitorinqini və yerinə yetirilməsinə nəzarəti həyata keçirir;

2.1.3. beynəlxalq investisiya fondlarına təqdim olunacaq investisiya layihələrinin seçimini və ilkin qiymətləndirilməsində, beynəlxalq investisiya fondları çərçivəsində investisiyaların cəlb edilməsi və yatırılması ilə bağlı müqavilələrin, memorandumların və digər sənədlərin hazırlanmasında, hüquqi çərçivənin təkmilləşdirilməsində iştirak edir, beynəlxalq investisiya fondlarına ilə bağlı işlərin koordinasiyasını təşkil edir;

2.1.4. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq şöbənin vəzifələri aşağıdakılardır:

3.1.1. mərkəzi icra hakimiyyəti orqanlarının və dövlətə məxsus hüquqi şəxslərin Azərbaycan Respublikası və ya Azərbaycan Respublikası Hökuməti adından beynəlxalq maliyyə institutları və beynəlxalq donorlardan aldıqları qrant, maliyyə və texniki yardım layihələrinin iqtisadi ekspertizasını həyata keçirmək və reyestrini aparmaq;

3.1.2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası” və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası”na əsasən mərkəzi icra hakimiyyəti orqanları, dövlətə məxsus hüquqi şəxslər və həmin fərmanlarla müəyyən edilən digər dövlət qurumları tərəfindən beynəlxalq maliyyə institutları və digər beynəlxalq təşkilatlardan dövlət adından borc və dövlət zəmanəti ilə kreditlərin cəlb edilməsi üçün prioritet sahələrin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq, bununla əlaqədar dövlət orqanlarının, müəssisə və təşkilatlarının layihə təkliflərinin iqtisadi ekspertizasını həyata keçirmək;

3.1.3. beynəlxalq maliyyə institutları və beynəlxalq donorlar tərəfindən dövlət orqanlarına, müəssisə və təşkilatlarına verilən qrant, maliyyə və texniki yardım, habelə Azərbaycan

Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələrlə bağlı müqavilələrin (sazişlərin) ekspertizasını həyata keçirmək, Nazirliyə həvalə edilmiş beynəlxalq layihələrə rəy vermək, həmin layihələrə dair müqavilələr (sazişlər) üzrə öhdəliklərin yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

3.1.4. dövlət orqanlarına, müəssisə və təşkilatlarına beynəlxalq donorlar tərəfindən ayrılan qrantları, maliyyə və texniki yardımları əlaqələndirmək, həmin vəsaitlərin məqsədli və səmərəli istifadə olunmasına nəzarəti həyata keçirmək;

3.1.5. texniki əməkdaşlıq üçün əhəmiyyət kəsb edən layihələrin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq, onların ikitərəfli və ya çoxtərəfli əməkdaşlıq çərçivəsində maliyyələşdirilməsi üçün aidiyyəti üzrə müraciət etmək, habelə müvafiq dövlət orqanlarının, müəssisə və təşkilatlarının müraciətlərinə əsasən həmin yardımların onlara ayrılması üçün tədbirlər görmək;

3.1.6. beynəlxalq maliyyə (kredit) təşkilatları, donorlar, beynəlxalq investisiya fondları ilə əməkdaşlığı həyata keçirmək, mövcud əlaqələrin gücləndirilməsi və yeni əlaqələrin qurulması sahələrində təkliflər hazırlamaq;

3.1.7. beynəlxalq maliyyə (kredit) təşkilatları, donorlar, beynəlxalq investisiya fondları tərəfindən daxil olmuş müraciətlərə, hesabat və məlumatlara baxmaq, iqtisadi ekspertizasını aparmaq və onlara dair rəy və təkliflər vermək;

3.1.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq beynəlxalq müqavilələrdən (sazişlərdən, konvensiyalardan və s.) və beynəlxalq maliyyə institutları əməkdaşlıq çərçivəsində qəbul olunmuş digər sənədlərdən irəli gələn öhdəliklərin Nazirliyin fəaliyyət istiqamətləri üzrə ekspertizasını həyata keçirmək, ölkənin qeyd olunan sənədlərdə iştirakının məqsədəuyğunluğuna dair rəy vermək;

3.1.9. ölkənin beynəlxalq maliyyə (kredit) nstitutları, beynəlxalq donor və beynəlxalq investisiya fondları ilə münasibətlərinin qurulması və genişləndirilməsi istiqamətində tədbirlər görmək;

3.1.10. beynəlxalq maliyyə (kredit) institutları, beynəlxalq donorlar və beynəlxalq investisiya fondları tərəfindən qəbul edilmiş aidiyyəti regional və ölkə strategiyalarının, proqramlarının və regional layihələrin Nazirliyin fəaliyyət istiqamətləri üzrə ekspertizasını həyata keçirmək və bu sənədlərin milli prioritetlərlə uzlaşdırılması üçün təkliflər hazırlamaq;

3.1.11. beynəlxalq maliyyə (kredit) institutlarına üzvlüklə bağlı ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin (sazişlərin, konvensiyaların və s.) icrasına Nazirliyin fəaliyyət istiqamətləri üzrə nəzarət etmək və həmin müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün lazım olan tədbirlər görmək;

3.1.12. beynəlxalq investisiya fondlarının fəaliyyəti, investisiya prioritetləri və investisiya bazarları üzrə sistemli təhlilin və monitorinqin aparılmasını, beynəlxalq investisiya fondları və digər xarici investorlarla qarşılıqlı əlaqələrin qurulmasını, saxlanılmasını və inkişaf etdirilməsini təmin etmək, beynəlxalq investisiya fondları çərçivəsində həyata keçirilən investisiya layihələrinin səmərəliliyini təhlil etmək;

3.1.13. beynəlxalq investisiya fondları və bu çərçivədə digər xarici investorlarla qarşılıqlı əlaqəni qurmaq və inkişaf etdirmək;

3.1.14. beynəlxalq investisiya fondlarının idarəolunması üzrə hüquqi çərçivənin təkmilləşdirilməsi istiqamətində təkliflər verir, hüquqi çərçivənin müəyyən edilməsində iştirak edir;

3.1.15. beynəlxalq investisiya fondları ilə danışıqlarda, görüşlərdə və işgüzar tədbirlərdə iştirak etmək;

3.1.16. beynəlxalq investisiya fondlarına təqdim olunacaq investisiya layihələrinin seçimini və ilkin qiymətləndirilməsində iştirak etmək;

3.1.17. beynəlxalq investisiya fondlarına ilə bağlı işlərin koordinasiyasını, o cümlədən investisiya fondlarına büdcədən ayrılan vəsaitlər üzrə sifarişlərinin verilməsi və fondlara köçürülməsi ilə bağlı işləri təmin etmək ;

3.1.18. beynəlxalq investisiya fondları çərçivəsində investisiyaların cəlb edilməsi və yatırılması ilə bağlı müqavilələrin, memorandumların və digər sənədlərin hazırlanmasında iştirak etmək;

3.1.19. investisiya fəaliyyəti sahəsində qüvvədə olan milli və beynəlxalq qanunvericiliyin tələblərinə riayət olunmasını təmin etmək;

3.1.20. nazirliyin strukturları, dövlət qurumları və digər müvafiq təşkilatlarla investisiya məsələləri üzrə qarşılıqlı fəaliyyət göstərmək;

3.1.21. rəhbərlik üçün analitik və hesabat xarakterli materiallar hazırlamaq;

3.1.22. Nazirliyin fəaliyyət istiqamətləri üzrə beynəlxalq təsisatlar tərəfindən keçirilən forumların, konfransların, sərgilərin, digər tədbirlərin işində iştirak etmək və bu kimi tədbirlərin ölkədə keçirilməsini təşkil etmək, bu sahədə digər dövlət orqanlarının işinin əlaqələndirilməsi üçün zəruri tədbirlər görmək;

3.1.23. bu Əsasnamə ilə müəyyən olunmuş səlahiyyətlərin həyata keçirilməsi ilə bağlı qanunvericilik aktlarının, müqavilələrin (sazişlərin, konvensiyaların və s.), təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, belə layihələrin hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;

3.1.24. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə, yerli və beynəlxalq təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.1.25. səlahiyyətləri çərçivəsində Nazirliyin inkişaf konsepsiyasının (strateji planının) həyata keçirilməsini təmin etmək;

3.1.26. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.1.27. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.1.28. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.1. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. beynəlxalq maliyyə institutları, beynəlxalq donorlar və beynəlxalq investisiya fondları ilə texniki əməkdaşlıq üçün əhəmiyyət kəsb edən layihələrin müəyyənləşdirilməsi üzrə təkliflər vermək, onların tərəfdaşlıq proqramlarında, təsisat və institutlarının təşəbbüs və tədbirlərində iştirak etmək;

4.1.2. beynəlxalq maliyyə (kredit) institutları, beynəlxalq donorlar və beynəlxalq investisiya fondlarının təşkil etdiyi, respublikada və xaricdə keçirilən forumlarda, sərgilərdə, təqdimatlarda, konfranslarda, habelə digər bu kimi tədbirlərdə iştirak etmək;

4.1.3. Nazirliyin strukturları tərəfindən hazırlanmış qanunvericilik aktlarının, müqavilələrin (sazişlərin, konvensiyaların və s.), təşkilati-sərəncamverici sənədlərin layihələrinə dair rəy və təkliflər vermək;

4.1.4. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, ümumiləşdirmələr və monitorinqlər aparmaq, analitik materiallar hazırlamaq;

4.1.5. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar təkliflər vermək, Nazirliyin strukturlarına müvafiq sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.1.6. dövlət orqanları, müəssisə və təşkilatları üçün beynəlxalq maliyyə (kredit) institutları, beynəlxalq donorlar və beynəlxalq investisiya fondları tərəfindən kreditlərin, qrantların, maliyyə və texniki yardımların alınması ilə əlaqədar aparılan danışıqlarda, habelə fəaliyyət dairəsinə aid edilmiş digər məsələlərlə bağlı Nazirliyi dövlət orqanları, beynəlxalq təşkilatlar, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.1.7. dövlət orqanları, müəssisə və təşkilatları tərəfindən hazırlanan və ya onlara daxil olan beynəlxalq kredit, qrant, maliyyə və texniki yardım üzrə sazişlərin (müqavilələrin) həyata keçirilməsinin zəruriliyini əsaslandıran və onun maliyyə-iqtisadi nəticələrini qiymətləndirən sənədləri əldə etmək;

4.1.8. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.1.9. dövlət orqanlarına, beynəlxalq təşkilatlara, bələdiyyələrə, fiziki və hüquqi şəxslərə müraciətlərin layihələrini hazırlamaq;

4.1.10. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.1.11. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən edilir və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna Xarici maliyyə institutları ilə əməkdaşlıq sektoru, Strateji maliyyə institutları ilə əməkdaşlıq sektoru, Beynəlxalq investisiya fondları və donorlarla əməkdaşlıq sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavinləri vardır. Şöbə müdirinin müavinləri şöbə müdiri tərəfindən onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyırlar.

Şöbə müdiri olmadıqda, onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir.

5.6. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

6.1. Xarici maliyyə institutları ilə əməkdaşlıq sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olmayan beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın əlaqələndirilməsi və inkişaf etdirilməsi üçün tədbirlər görmək;

6.1.2. Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olmayan beynəlxalq maliyyə (kredit) institutlarına üzvlüklə bağlı ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin (sazişlərin, konvensiyaların və s.) icrasına nəzarəti həyata keçirmək və həmin müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.1.3. dövlət orqanları, müəssisə və təşkilatlarının iştirakçısı olduğu Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olmayan beynəlxalq maliyyə institutlarının kredit müqavilələrinin (sazişlərinin, kontraktlarının və s.) layihələrinin ekspertizasını həyata keçirmək, müvafiq qurum və təşkilatlardan onların zəruriliyini əsaslandıran, maliyyə-iqtisadi nəticələrini qiymətləndirən sənədlərin əldə edilməsi üçün tədbirlər görmək;

6.1.4. dövlət orqanlarına, müəssisə və təşkilatlarına Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olmayan beynəlxalq maliyyə (kredit) institutları tərəfindən ayrılan kredit layihələrinin əlaqələndirilməsi üçün tədbirlər görmək, onların icrasının monitorinqini aparmaq, ayrılmış kreditlərin məqsədli və səmərəli istifadə olunmasına nəzarətin həyata keçirilməsinə dair təkliflər vermək;

6.1.5. maliyyə-kredit əməkdaşlığı üçün Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olmayan beynəlxalq maliyyə (kredit) institutları ilə əhəmiyyət kəsb edən layihələrin müəyyənləşdirməsi ilə bağlı təkliflər, habelə onların ikitərəfli və çoxtərəfli əməkdaşlıq çərçivəsində maliyyələşdirilməsi üçün müraciətlər hazırlamaq, aidiyyəti dövlət orqanlarının müraciətlərinə əsasən həmin kreditlərin onlara ayrılması üçün tədbirlər görmək;

6.1.6. Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olmayan maliyyə institutlarının təşkil etdiyi konfrans, seminar və digər tədbirlərdə iştirak etmək, habelə bu cür tədbirlərin ölkədə təşkil edilməsini və bu tədbirlərdə iştirakı təmin etmək;

6.1.7. Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olmayan maliyyə institutları ilə bağlanılmış beynəlxalq kredit müqavilələrinin (sazişlərinin, konvensiyalarının və s.) icrasına nəzarətin həyata keçirilməsi, həmin müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.1.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.1.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. Strateji maliyyə institutları ilə əməkdaşlıq sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olan beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın əlaqələndirilməsi və inkişaf etdirilməsi üçün tədbirlər görmək;

6.2.2. Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olan beynəlxalq maliyyə (kredit) institutlarına üzvlüklə bağlı ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin (sazişlərin, konvensiyaların və s.) icrasına nəzarətin həyata keçirilməsi və həmin müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.2.3. dövlət orqanları, müəssisə və təşkilatlarının iştirakçısı olduğu Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olan beynəlxalq maliyyə institutlarının kredit müqavilələrinin (sazişlərinin, kontraktlarının və s.) layihələrinin ekspertizasını həyata keçirmək, müvafiq qurum və təşkilatlardan onların zəruriliyini əsaslandıran, maliyyə-iqtisadi nəticələrini qiymətləndirən sənədlərin əldə edilməsi üçün tədbirlər görmək;

6.2.4. dövlət orqanlarına, müəssisə və təşkilatlarına Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olan beynəlxalq maliyyə (kredit) institutları tərəfindən ayrılan kredit layihələrinin əlaqələndirilməsi üçün tədbirlər görmək, onların icrasının monitorinqini aparmaq, ayrılmış kreditlərin məqsədli və səmərəli istifadə olunmasına nəzarətin həyata keçirilməsinə dair təkliflər vermək;

6.2.5. maliyyə-kredit əməkdaşlığı üçün Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olan beynəlxalq maliyyə (kredit) institutları ilə əhəmiyyət kəsb edən layihələrin müəyyənləşdirməsi ilə bağlı təkliflər, habelə onların ikitərəfli və ya çoxtərəfli əməkdaşlıq çərçivəsində maliyyələşdirilməsi üçün müraciətlər hazırlamaq, aidiyyəti dövlət orqanlarının müraciətlərinə əsasən həmin kreditlərin onlara ayrılması üçün tədbirlər görmək;

6.2.6. Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olan maliyyə institutlarının təşkil etdiyi konfrans, seminar və digər tədbirlərdə iştirak etmək, habelə bu cür tədbirlərin ölkədə təşkil edilməsini və bu tədbirlərdə iştirakı təmin etmək;

6.2.7. Müdirin İdarəsi İqtisadiyyat Nazirliyi olan maliyyə institutları ilə bağlanılmış beynəlxalq kredit müqavilələrinin (sazişlərinin, konvensiyalarının və s.) icrasına nəzarətin həyata keçirilməsi, həmin müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.2.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.2.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.3. Beynəlxalq investisiya fondları və donorlarla əməkdaşlıq sektorunun vəzifələri aşağıdakılardır:

6.3.1. beynəlxalq donorlarla və beynəlxalq investisiya fondları ilə əməkdaşlığın əlaqələndirilməsi və inkişaf etdirilməsi üçün tədbirlər görmək;

6.3.2. fəaliyyət istiqamətlərinə uyğun olaraq ölkənin regional və beynəlxalq iqtisadi əlaqələrinin gücləndirilməsi və yeni əlaqələrin qurulması istiqamətində tədbirlər görmək;

6.3.3. dövlət orqanları, müəssisə və təşkilatları tərəfindən hazırlanan və beynəlxalq donorlar tərəfindən onlara daxil olan qrantlarla bağlı təkliflərin, o cümlədən donorlar tərəfindən ayrılan bütün növ qrantların, maliyyə və texniki yardımların alınması üzrə layihələrin ekspertizasını həyata keçirmək;

6.3.4. dövlət orqanlarının, müəssisə və təşkilatlarının beynəlxalq donorlar tərəfindən ayrılan qrant, maliyyə və texniki yardım sahəsində fəaliyyətinin əlaqələndirilməsi üçün təkliflər hazırlamaq;

6.3.5. dövlət orqanlarından, müəssisə və təşkilatlarından beynəlxalq donorlar tərəfindən ayrılan bütün növ qrantların, maliyyə və texniki yardımların alınmasının zəruriliyini əsaslandıran, maliyyə-iqtisadi nəticələrini qiymətləndirən sənədlərin əldə edilməsi üçün zəruri tədbirlər görmək;

6.3.6. dövlət orqanlarına, müəssisə və təşkilatlarına beynəlxalq donorlar tərəfindən ayrılan maliyyə və texniki yardımların əlaqələndirilməsi, həmin vəsaitlərin məqsədli və səmərəli istifadə olunmasına nəzarətin həyata keçirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.3.7. texniki əməkdaşlıq üçün əhəmiyyət kəsb edən layihələrin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq, habelə aidiyyəti dövlət orqanlarının müraciətlərinə əsasən onlara beynəlxalq donorlar tərəfindən maliyyə və texniki yardımların ayrılması üçün tədbirlər görmək;

6.3.8. beynəlxalq donorların təşkil etdiyi konfrans, seminar və digər tədbirlərdə iştirak etmək, habelə bu cür tədbirlərin ölkədə təşkil edilməsini və bu tədbirlərdə iştirakı təmin etmək;

6.3.9. mərkəzi icra hakimiyyəti orqanlarının və dövlətə məxsus hüquqi şəxslərin Azərbaycan Respublikası və ya Azərbaycan Respublikası Hökuməti adından aldıqları texniki yardım və qrant layihələrinin Reyestrini aparmaq, Reyestrin fəaliyyətini effektiv təşkil etmək, qanunvericiliyn tələblərinə uyğun olaraq texniki yardım və qrant layihələri üzrə müvafiq qaydada hesabatlılığı təmin etmək;

6.3.10. beynəlxalq donorlar tərəfindən maliyyələşdirilən texniki yardım və qrant layihələrinin icrasına nəzarət etmək,;

6.3.11. beynəlxalq investisiya fondlarının fəaliyyətinin və investisiya prioritetlərinin təhlilini və monitorinqini aparmaq;

6.3.12. nazirliyin layihə və proqramlarına beynəlxalq investisiya fondları çərçivəsində investisiyaların cəlb edilməsi üzrə təkliflər hazırlamaq;

6.3.13. beynəlxalq investisiya fondları və bu çərçivədə digər xarici investorlarla qarşılıqlı əlaqəni qurmaq və inkişaf etdirmək;

6.3.14. beynəlxalq investisiya fondları ilə danışıqlarda, görüşlərdə və işgüzar tədbirlərdə iştirak etmək;

6.3.15. beynəlxalq investisiya fondlarına təqdim olunacaq investisiya layihələrinin seçimində və ilkin qiymətləndirilməsində iştirak etmək;

6.3.16. beynəlxalq investisiya fondlarına ilə bağlı işlərin koordinasiyasını, o cümlədən investisiya fondlarına büdcədən ayrılan vəsaitlər üzrə sifarişlərinin verilməsi və fondlara köçürülməsi ilə bağlı işləri təmin etmək;

6.3.17. beynəlxalq investisiya fondları çərçivəsində beynəlxalq investisiyaların cəlb edilməsi ilə bağlı müqavilələrin, memorandumların və digər sənədlərin hazırlanmasında iştirak etmək;

6.3.18. beynəlxalq investisiya fondları üzrə hüquqi çərçivənin təkmilləşdirilməsində iştirak etmək;

6.3.19. investisiya fəaliyyəti sahəsində qüvvədə olan milli və beynəlxalq qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər vermək;

6.3.20. nazirliyin strukturları, dövlət qurumları və digər müvafiq təşkilatlarla investisiya məsələləri üzrə qarşılıqlı fəaliyyət göstərmək;

6.3.21. rəhbərlik üçün analitik və hesabat xarakterli materiallar hazırlamaq;

6.3.22. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.3.23. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.